Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

# XƏBƏR BÜLLETENİ

## AZƏRBAYCANDA YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

№ 5



Mövzular:

KOMPONENT 2 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 2.5.3 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

İDARƏETMƏ KOMİTƏSİNİN ÜÇÜNCÜ İCLASI

KOMPONENT 2 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 2.6.1 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

Litvaya Təlim Səfəri

AZƏRBAYCANDA YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİ

# KOMPONENT 2 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 2.5.3 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

13-14 iyul 2023-cü il tarixindəBenefisiar Ölkənin seçilmiş yol şəbəkəsinin yol təhlükəsizliyi üzrə audit/yoxlamalarının aparılmasına dair hazırlıq üzrə onlayn missiya keçirilib.

Polşada Avropa İttifaqının Nəqliyyat Layihələri Mərkəzi və Milli Avtomobil Yolları və Magistral Yollar Baş İdarəsinin nümayəndələri yol təhlükəsizliyi üzrə audit daxil olmaqla yol infrastrukturunun təhlükəsizliyinin idarə edilməsi və yollarda təhlükəsizlik üzrə aparılan yoxlamaların növlərindən bəhs edən təqdimatla çıxış ediblər.




Ekspertlər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nümayəndələrinə yol infrastrukturunun təhlükəsizliyinin idarə edilməsinə dair 96/2008/EC saylı Direktivdə müəyyən edilmiş yol infrastrukturunun təhlükəsizliyinin idarə edilməsi prosedurlarının həyata keçirilməsinə dair praktiki yanaşma haqqında ətraflı məlumat veriblər.

Təqdimatlar yol hərəkətinin təhlükəsizliyi üzrə yoxlamaların aparılması metodologiyasını əhatə edib. Ekspertlər bu yoxlamaların aparılması üçün lazım olan vasitələr, tələblər və prosedurlar haqqında məlumat veriblər. Bundan başqa, onlar yoxlamaları həyata keçirən qrupların tapşırıqları yerinə yetirərkən təhlükəsizliyini təmin etmək üçün görüləcək tədbirlərin vacibliyini vurğulayıblar.

## YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİ ÜZRƏ YOXLAMALARIN PROSEDURU



# İDARƏETMƏ KOMİTƏSİNİN ÜÇÜNCÜ İCLASI

Avqustun 31-də hibrid formatda tvinninq layihəsinin İdarəetmə Komitəsinin Üçüncü İclası keçirilib. İclasda layihənin icrası ilə bağlı üçüncü rüb ərzində əldə edilmiş nailiyyətlərə diqqət yetirilib.

Üzv Dövlətlərin Layihə Rəhbəri və Kiçik Tərəfdaş Layihə Rəhbəri, Benefisiar Ölkənin Layihə Rəhbəri, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyi, İqtisadiyyat Naziliyinin nümayənləri də iştirakçılar arasında idi.

İclasın gündəliyi layihə ilə bağlı bir sıra mühüm mövzuları, o cümlədən layihənin fəaliyyətləri, büdcəsi, ekspert missiyalarının qrafiki, Kommunikasiya və Məlumatlandırma Planını əhatə edib. İştirakçılar indiyədək əldə edilmiş nailiyyətləri, rast gəlinən çətinlikləri və irəliləyişlər əsasında İlkin İş Planına edilmiş düzəlişləri müzakirə ediblər. Onlar həmçinin layihənin planlaşdırılan fəaliyyətlərin qrafikinə nə dərəcədə uyğun həyata keçirildiyini qiymətləndiriblər.



# KOMPONENT 2 ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT 2.6.1 ÜZRƏ TVİNNİNQ MİSSİYASI

4-7 sentyabr 2023-cü il tarixlərində Fəaliyyət 2.6.1 "Mövcud məlumat bazalarının və yol xəritələrinin rəqəmsallaşdırılması vəziyyətinin, onların təfərrüatlılıq səviyyəsinin və imkanlarının ("Nəqliyyat vasitələri və sürücülər" modulları) yenidən nəzərdən keçirilməsinə dair hesabat" üzrə missiya keçirilmişdir.

Missiya çərçivəsində Polşa və Litvalı ekspertlər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, nazirliyin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Daxili İşlər Nazirliyinin (DİN)  Baş İnformasiya Kommunikasiya İdarəsi və Baş Dövlət Yol Polisi İdarəsi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, nazirliyin tabeliyində Geodeziya və Kartoqrafiya Agentliyi və Dövlət Statistika Komitəsinin nümayəndələri ilə bir sıra görüşlər keçirib.



Missiya zamanı ekspertlər yerində müşahidələr aparmaq məqsədilə RİNN-nin nəzdində fəaliyyət göstərən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzini və DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzini ziyarət ediblər.

Missiya Azərbaycanın müxtəlif qurumlarının nəqliyyat, o cümlədən yol təhlükəsizliyi ilə bağlı informasiya bazalarının müəyyən edilməsini əhatə edib.

Rəqəmsallaşmanın informasiyanın daha əlçatan olmasında əhəmiyyətli rol oynadığını nəzərə alaraq ekspertlər xəritələrin və informasiya bazalarının rəqəmsallaşma səviyyəsini qiymətləndiriblər. Missiya ərzində həmçinin müxtəlif qurumlar arasında informasiya axınının necə həyata keçirildiyi haqqında da müzakilər aparılıb. Asan və rahat informasiya mübadiləsinin təmin edilməsi koordinasiya və qərarların verilməsində böyük əhəmiyyət kəsb edir.




Görüşlərdə həmçinin nəqliyyat sektorunda effektiv qərar qəbulu və səmərəli fəaliyyət üçün dəqiq və aktual, daima yenilənən məlumatların vacibliyi vurğulanıb.

Ekspertlər müzakirələrə əsaslanaraq sistemin daha da təkmilləşdirilməsi və yol hərəkətinin idarə edilməsi üzrə vahid informasiya bazasının yaradılması baxımından bu məlumatların faydalılığını təhlil edəcək və qiymətləndirəcəklər. Ümumilikdə, missiyanın məqsədi məlumatlı qərarlar qəbul etmək və yol təhlükəsizliyi baxımından nəqliyyat fəaliyyətlərini təkmilləşdirmək üçün məlumatların əldə edilməsi və istifadəsi üçün daha səmərəli və effektiv sistem yaratmaqdır.

# LITVAYA TƏLIM SƏFƏRI

18-22 sentyabr tarixlərində Komponent 1 “Yol hərəkətinin təhlükəsizliyi sisteminin hüquqi və institusional bazasının gücləndirilməsi” çərçivəsində Litva, Vilnüsə təlim tədris səfəri təşkil olunub.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, nazirliyin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polis İdarəsi, İqtisadiyyat Nazirliyinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nümayəndələri təlim səfərində iştirak edib.




Təlim səfərinin məqsədi Litvanın institusional strukturu, siyasət və təcrübələri, uğurlu strategiyaları da daxil olmaqla yol hərəkətinin təhlükəsizliyinə necə yanaşması barədə məlumat almaq idi. Bu təcrübə daha sonra Azərbaycanda yol hərəkətinin təhlükəsizliyinin gücləndirilməsi və qəzaların sayının azaldılması məqsədilə tətbiq oluna və ya uyğunlaşdırıla bilər.

Səfərin ilk günü təlim iştirakçıları layihənin Kiçik Tərəfdaşı olan Litva Nəqliyyat Təhlükəsizliyi Administrasiyası (LTSA) tərəfindən Avropa Mobillik həftəsi çərçivəsində təşkil olunmuş yollarda təhlükəsiz davranış qaydalarının əhəmiyyətinin vurğulandığı “Görünməz İnsanlar Avtobusu” adlı sosial tədbirdə iştirak edib.

Tədbir piyadalar tərəfindən günün qaranlıq vaxtı işıqqaytarıcılardan istifadə edilməməsi səbəbindən baş verən piyada ölümləri ilə bağlı problemin həllinə həsr olunub.

LTSA yol nəqliyyatı təhlükəsizliyinin müxtəlif aspektlərində mühüm rol oynayır. Onun əsas funksiyaları sırasına avtomobil daşıyıcılarının lisenziyalaşdırılması, beynəlxalq marşrutlarda sərnişindaşımaların tənzimlənməsinin təmin edilməsi, nəqliyyat vasitələrinə dair tipin təsdiqlənməsi daxildir.




Bundan əlavə, iştirakçılar Litvanın Nəqliyyat və Rabitə Nazirliyinin nümayəndələri ilə də görüşmək imkanı əldə ediblər. Təlim səfəri çərçivəsində avtonom nəqliyyat vasitələri sahəsində önəmli şirkətlərdən olan Estoniyanın "Clevon" şirkəti ilə onlayn formatda görüş təşkil olunub. Bundan əlavə, iştirakçılar “LastMile” çatdırılma şirkəti ilə birgə Litvanın aparıcı ərzaq şəbəkələrindən biri olan “IKI”dən müştərilərə malların birbaşa çatdırılmasını həyata keçirən robot kuryerlərin fəaliyyəti ilə yerində tanış olublar. Avtonom Robot Daşıyıcılarının (ARC) 360° kameralar, xüsusi sensorlar və onların işinə real vaxt rejimində uzaqdan nəzarət edən teleoperatorlar sayəsində təhlükəsiz olduğu, eyni zamanda təbiətə dost, iqtisadi cəhətdən səmərəli olduğu vurğulanıb.



Təlim səfəri zamanı iştirakçılar Nəqliyyat Səlahiyyətləri Agentliyini də ziyarət edib. Agentlik yol təhlükəsizliyi ilə bağlı potensial təhlükələrin müəyyən edilməsi, eləcə də qəza ocaqlarının müəyyən edilməsi və araşdırılması məqsədilə yol infrastrukturunun sistematik qiymətləndirilməsi olan yol təhlükəsizliyinə dair audit və yoxlamaların aparılmasında mühüm rol oynayır.

İştiakçılar səfər zamanı həmçinin Litvada yol infrastrukturunun idarə edilməsində Litva Yol İdarəsinin rolu haqqında ətraflı məlumat əldə ediblər. Azərbaycanlı ekspertlər tərəfindən Yol İdarəsinin fəaliyyətlərinin bir neçə əsas aspektləri, o cümlədən İntellektual Nəqliyyat Mərkəzi, sektorial sürət kameraları və hava şəraitinin monitorinqi stansiyaları, yol infrastrukturunun vəziyyəti və perspektivləri kimi məsələlərə dair Litva təcrübəsi öyrənilib.

Təlim səfəri zamanı Litvanın Dövri Texniki Baxış Şirkətləri Assosiasiyası "Transeksta" və beynəlxalq avtobus istehsalçısı "Altas"a səfərlər təşkil edilib.

Litvaya təlim səfəri yol hərəkətinin təhlükəsizliyi və nəqliyyatın müxtəlif sahələrini, o cümlədən Daxili İşlər Nazirliyinin Polis İdarəsi, "Regitra" Dövlət Müəssisəsi və Vilnüs Avtomexanika və Biznes Məktəbinə səfərləri əhatə edib. Səfər iştirakçılara bu qurumların təhlükəsiz yolların və məsuliyyətli yol istifadəçilərinin təmin edilməsində oynadığı mühüm rollar haqqında daha çox məlumat əldə etməyə imkan verib.






Litvada 2004-2022-ci illər üzrə yol-nəqliyyat hadisələrinin və baş vermiş ölüm və xəsarət hallarının dinamikası

Polis idarəsində təşkil edilmiş görüş zamanı iştirakçılar yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində hüquq-mühafizə orqanlarının mühüm rolu barədə məlumatlandırılıb, “Regitra” Dövlət Müəssisəsində isə sürücülərin imtahan prosesi ilə tanış olub. Bundan əlavə, Vilnüs Avtomexanika və Biznes Məktəbinə səfər zamanı təhlükəli hava şəraitində sürücülük qabiliyyətinin təkmilləşdirilməsi, eləcə də avtomobil hissələrinin təmiri üzrə ixtisaslaşdırılmış kurslarda keçirilən dərslərin əhəmiyyəti vurğulanıb.



Ümumilikdə, Litvaya təlim səfəri yol hərəkətinin təhlükəsizliyi və nəqliyyata dair hərtərəfli baxış təqdim edib. Bu təcrübələr Litvada müxtəlif qurumların bütün vətəndaşlar üçün təhlükəsiz yolların təmin edilməsi üçün göstərdikləri birgə səyi bir daha vurğulayıb.

# HƏYATA YOL VER




**Avropa İttifaqı Nəqliyyat Layihələri Mərkəzi**
Plac Europejski 2
00–844 Varşava, Polşa
Tel: +48 22 262 05 37
E-poçt: cupt@cupt.gov.pl,
kgrot@cupt.gov.pl

**Rezident Tvinninq Məsləhətçisinin Ofisi**
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
E-poçt: ejaszczuk@cupt.gov.pl,
twinning-az@cupt.gov.pl
Tel: +994 55 418 49 87
Zərifə Əliyeva küçəsi 77, Bakı,
AZ1000 Azərbaycan


**LAYİHƏNİN MÜDDƏTİ: OKTYABR 2022-Cİ İL – OKTYABR 2024-CÜ İL**


Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu nəşrin məzmununa görə məsuliyyəti yalnız "Azərbaycanda Yol Hərəkətinin Təhlükəsizliyinin Gücləndirilməsi" Tvinninq Layihəsi daşıyır və Avropa İttifaqının mövqeyini əks etdirmir.